

# TƏRTƏR: Hər şey yaxşılığa doğru...

***Son günlər Tərtərə yolu düşənlər maraqlı və qəribə bir mənzərə ilə rastlaşırlar: şəhər başdan-başa tikinti meydançasına çevrilib. Söhbət təkcə yeni tikilən və tikilməkdə olan müxtəlif təyinatlı binalardan getmir. Bu ilin aprel döyüşləri zamanı dağıdılmış evləri, küçələri də nəzərdə tutmuruq. Onu da əlavə edək ki, həmin evlər və küçələr qısa müddət ərzində bərpa edilmişdir. Söhbət, ilk növbədə, İslam İnkişaf Bankının vəsaiti hesabına Tərtər şəhərinin və ətraf 11 kəndin içməli su və kanalizasiya sisteminin qurulması layihəsindən gedir. Ötən ilin iyun ayında icrasına başlanmış layihənin noyabr ayında yekunlaşması gözlənilir.***



Bəli, bu gün Tərtər yenidən tikilir, qurulur, gözəlləşir, – desək heç də səhv etmərik. Burada vacib olan bir məqam da var: şəhərin bütün küçə və prospektlərini əhatə edən bu söküntü-tikinti, bərpa və yenidənqurma işləri, daha doğrusu, yaranmış müvəqqəti çətinlik sakinləri nəinki narahat etmir, əsəbiləşdirmir, əksinə, onları sevindirir. Ona görə ki, görülən işlər kampaniya xarakteri daşımır. Uzun illər ərzində yığılıb qalmış bu problemlərin həlli gələcəyə ünvanlanıb.

Bütün bunlar, əlbəttə, məsələnin bir tərəfidir. Biz bura ərazisinin böyük bir hissəsi – cəbhə xəttində yerləşən rayonun təsərrüfat qayğılarını, sosial məsələləri, adamlarla aparılan işi, onların qəbulu, ərizə, şikayət və məktublarına baxılmasını və s. əlavə edə bilərik. Bütün bunlar isə heç şübhəsiz, yerlərdə işin düzgün təşkilini, iqtisadi, sosial və mədəni məsələlərin həllinə kompleks yanaşmağı, iş üslub və metodlarını, təşkilat-idarəetmə məsələlərini daim təkmilləşdirməyi tələb edir.

**Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla söhbətimizə də elə buradan başladıq. Rayon rəhbəri böyük qətiyyət və nikbinliklə danışdı:**

– İndi başqa cür işləmək sadəcə olaraq mümkün deyil. Kabinetdən rəhbərlik dövrü çoxdan keçib. Hər hansı sahədə işin gedişini, adamların əhval-ruhiyyəsini təkcə telefon zəngi, yaxud hər hansı informasiyaya arxalanıb müəyyən etmək mümkün deyil. Deməli, adamlarla canı ünsiyyət, vacib sosial məsələlərin vaxtında həlli, çevik və ardıcıl icra intizamı olduqca vacibdir. Biz işimizi məhz bu istiqamətdə qurmağa çalışırıq.

Həyatımızın bütün sahələrində olduğu kimi, burada da hamımıza parlaq örnək olan həyat məktəbi, canlı nümunə var. Bu, ulu öndər Heydər Əliyevin ölməz ideya və əməlləri, ölkə Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən və titanik fəaliyyətidir. Belə olan halda bizim başqa cür işləməyə və yaşamağa, sadəcə, haqqımız yoxdur.

Son illər Tərtərdə iqtisadi, sosial və mədəni sahələrdə qazanılmış böyük uğurlar, yerlərdə işin düzgün təşkili, insan amili, sosial problemlərin uğurlu həlli icra başçısının dediklərinə əyani misaldır. Təkcə cari ilin ötən aylarının sosial-iqtisadi yekunlarına nəzər salmaq kifayətdir. Məlumdur ki, 2016-cı ilin aprel ayında erməni silahlı birləşmələrinin növbəti təxribatı nəticəsində Tərtər şəhəri də daxil olmaqla 17 yaşayış məntəqəsində 256 evə, 4 məktəb binasına, 2 tibb məntəqəsinə, 1 körpələr evi-uşaq bağçasına, qaz, işıq, su, rabitə təsərrüfatına və əhalinin mal-qarasına, digər əmlaklarına ziyan dəymişdir. Bununla əlaqədar ölkə Prezidentinin sərəncamı ilə zərər çəkmiş yaşayış evlərinin təmir-bərpası üçün vəsait ayrılmışdır. Həmin evlər qısa müddət ərzində yüksək səviyyədə təmir-bərpa olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Bundan başqa, YAP Tərtər rayon təşkilatı və Kənd Təsərrüfatı İdarəsi üçün yeni inzibati binaların tikintisi başa çatmışdır. 8 çoxmərtəbəli yaşayış binasının dam örtükləri, fasad hissəsi və giriş blokları təmir edilmişdir. Heydər Əliyev prospektində, E.Hüseynov, F.Qulami, Ş.Qurbanov, M.Mahmudov, V.Hüseynov, F.Əmirov, R.Mürsəlov küçələrində ümumi uzunluğu 8 kilometr olan yollara asfalt örtük çəkilmişdir. Nizami və Ə.Paşayev küçələrində yeni salınmış nümunəvi məhəllələrdə yaşıl örtüklü idman meydançaları tikilib istifadəyə verilmişdir.

Tərtər şəhərində 100 yerlik yeni uşaq bağçasının və müasir tələblərə cavab verən Şahmat məktəbinin tikintisində son tamamlama işləri aparılır. Ümumi sahəsi 1200 kvadratmetr olan yeni üslubda, ikimərtəbəli Tarix-Diyarşünalıq Muzeyinin, 18051 nəfər əhalisi olan 19 yaşayış məntəqəsini birləşdirən, Tərtər çayı üzərində uzunluğu 106 metr, eyni 11,5 metr olan yeni körpünün tikintisi isə davam etdirilir.

Tərtər çayı sahilində, 2,5 hektar ərazidə yeni parkın salınmasına başlanmışdır. Ərazi təmizlənmiş, hamarlanmış, burdan keçən yüksək gərginlikli hava xətti kənarlaşdırılmışdır. 25 min maşın torpaq daşınmışdır. Parkın ərazisindən keçən Buruc arxına 300 metr məsafədə beton kanal çəkilmişdir. Goranboy–Tərtər avtomobil yolunun 18-ci kilometrində, Sarov kəndi ərazisində, İncə çayı üzərində yerləşən, qəzalı vəziyyətdə olan körpünün tikintisi də davam etdirilir.

Ekoloji tarazlığın qorunması məqsədilə Bərdə, Ağdam və Gəncə istiqamətində yol kənarlarında və rayonun yaşayış məntəqələrində 30 mindən çox müxtəlif növ ağac və gül kolları əkilmişdir.

Rayon üzrə ümumi məhsul buraxılışının həcmi ötən ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 108,5 milyon manat təşkil etmişdir. Kənd təsərrüfatı məhsulunun ümumi həcmi 3,2 faiz, sənaye 10,2 faiz atmışdır. Orta aylıq əmək haqqı isə 217,8 manat təşkil etmişdir. 2140 yeni iş yeri açılmışdır ki, onun da 1459-u daimidir.

Ölkə Prezidentinin strateji məhsul olan pambıqçılığın inkişaf etdirilməsi məqsədilə apardığı məqsədyönlü tədbirlərin nəticəsi olaraq, rayonda bu sahənin keçmiş şöhrətini bərpa etmək üçün mühüm işlər görülür. O da məlumdur ki, sovet dönəmində Tərtərdə 43 min tondan artıq məhsul toplanırdı. 2016-cı ildə rayonda 1035 hektar pambıq əkilib becərilmişdir. Əvvəlki ilə nisbətən pambıq əkini 88,2 faiz artmışdır. Hazırda pambığın yığımı uğurla davam etdirilir. Qəbul məntəqələrinə bugünədək 1235 ton məhsul təhvil verilmişdir. Bu da əvvəlki ilə nisbətən 2 dəfə çoxdur. Hazırda pambıq yığımı davam edir.

2017-ci ildə rayonda 3000 hektarda pambıq, 2000 hektarda şəkər çuğunduru əkilməsi, 20 ton barama istehsalı nəzərdə tutulur. Baramaçılığın gələcəkdə inkişaf etdirilməsi üçün 120 min ədəd çəkil tingi əkiləcəkdir. Bunun üçün sahələr müəyyənləşdirilmiş, qüvvələr səfərbər edilmişdir. Bağçılığın inkişafı da diqqət mərkəzindədir. Bu istiqamətdə bir sıra işlər görülmüşdür. 2017-ci ildə illərdən bəri istifadə olunmayan 300 hektar sahədə bağçılığı inkişaf etdirmək məqsədilə dövlətə valyuta gətirən xurma, fındıq, zeytun, badam və nar bağlarının salınması planlaşdırılır.

Rayon üzrə kənd təsərrüfatı məhsulunun faktiki qiymətlərlə dəyəri 43,3 milyon manat təşkil etmişdir. Bunun 62,9 faizi bitkiçilik, 37,1 faizi heyvandarlıq məhsullarının payına düşür. Keçən ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı üzrə ümumi məhsul buraxılışının həcmi 3,2 faiz artmışdır.

2016-cı ildə 12 min 214 hektar taxıl sahələrində biçin aparılmışdır. 7932 hektar buğda sahəsinin hər hektarından orta məhsuldarlıq 37,3 sentner omaqla, 29 min 586 ton buğda, 4282 hektar arpa sahələrindən hər hektarından orta məhsuldarlıq 27,2 sentner olmaqla, 11 min 647 ton arpa məhsulu istehsal edilmişdir. Bundan başqa, 967 ton paxlalı, 742 ton dən üçün qarğıdalı, 2148 ton dən üçün günəbaxan, 13655 ton şəkər çuğunduru, 5831 ton kartof, 11745 ton tərəvəz, 6591 ton meyvə istehsal edilmişdir. Hazırda məhsul toplanışı davam etdirilir.

Gələn ilin bol məhsulu üçün 289 hektar sahədə təkrar əkin aparılmışdır. Heyvandarlığın inkişafı da diqqət mərkəzindədir. İribuynuzlu malın sayı 26,7 min başa, xırdabuynuzlu malın sayı 73,1 min başa çatmışdır. Həyata keçirilən tədbirlər nəticəsində 2134 ton diri çəkidə ət, 15,3 min ton süd, 7 milyon 670 min ədəd yumurta, 125 ton yun və son 20 ildə ilk dəfə 959 kiloqram barama istehsal edilmişdir.

Əhalinin dayanıqlı elektrik enerjisi və təbii qazla təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır. 5 yarımstansiyada yağ açarları, İsmayılbəyli və Sarıcalı yarımstansiyalarında, Tərtər şəhərində, Hüsənli, Azad Qaraqoyunlu kəndlərində, İsmayılbəyli, Poladlı kəndlərinin yaxınlığında məskunlaşan köçkünlərə xidmət edən hava xəttində təmir işləri aparılmışdır. 6 yaşayış məntəqəsi – Sarov, Bəyimsarov, Kəbirli, İlxıçılar, Dəmirçilər və Xoruzlu kəndləri qazlaşdırılmış, 3 yaşayış məntəqəsində isə işlər davam etdirilir.

2015-2016-cı dərs ilində rayonun ümumtəhsil məktəblərini bitirmiş məzunlardan ali məktəblərə 350 nəfər sənəd vermiş, 193 nəfər ali, 84 nəfər isə orta ixtisas məktəblərinə qəbul olmuşdur. Ali məktəblərə qəbul zamanı 7 nəfər 600-dən, 19 nəfər isə 500-dən yuxarı bal toplamışdır. Məzunlardan 5 nəfərin Heydər Əliyev adına Ali Hərbi Məktəbə, 3 nəfərin isə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olması yeniyetmə və gənclər arasında hərbi sahəyə marağın artmasının göstəricisidir.









Vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılması işi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətinin başçısı tərəfindən 736 vətəndaş qəbul edilmişdir, qaldırılmış məsələlərdən 452-si müsbət, 94-nün icrası isə qismən həll edilmişdir, 61-i əsassız sayılmış, 129-u aidiyyatı üzrə baxılması üçün idarə, müəssisə və təşkilatlara göndərilmişdir. İcra hakimiyyəti başçısının yerlərdə 32 səyyar qəbulu keçirilmiş, həmin qəbullarda 6570 nəfər iştirak etmiş, 285 nəfər vətəndaşın müraciəti dinlənilmiş, əksəriyyəti elə yerindəcə həll edilmişdir.

Bu gün Tərtərdə həyatın axarı gurdur. Rayonda sağlam mənəvi-psixoloji mühit, yaradıcı və təşəbbüskar ab-hava mövcuddur. Ərazinin böyük bir hissəsi cəbhə xəttində yerləşməsinə, qarşı tərəfin hər gün davam edən hücum və basqınlarına baxmayaraq, tikinti-quruculuq və abadlıq işləri sürətlə davam edir. Adamlar sabaha dərin inam və ümidlə baxırlar. Biz bu yazı üzərində işləyərkən, yenidən Tərtərdə olduq. Ağsaqqallarla, ziyalılarla, gənclərlə görüşüb söhbət etdik. Gördüklərimiz, müşahidə etdiklərimiz, şahidi olduqlarımız bizi ürəkdən sevindirirdi.

Tərtərlilər haqlı olaraq son illər əldə edilmiş bütün bu uğurlara görə, ilk növbədə, Prezident İlham Əliyevə sonsuz təşəkkür və minnətdarlıqlarını bildirirlər. Onlar bundan sonra da böyük səy və fədakarlıqla çalışacaqlarını, qarşıya qoyulmuş məsul vəzifələri uğurla yerinə yetirəcəklərini xüsusi vurğuladılar.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***